# Tarixdən süzülüb gələn rəqslərimiz

## Onların ruhunu qorumaqla dəyərlərimizi də qorumuş olarıq

**Böyük fransız səyyahı və yazıçısı Aleksandr Düma hələ 1848-ci ildə Şamaxıda qonaq olarkən, milli rəqslərimizi gördükdən sonra "Qafqaza səyahət" kitabında: "Bütün Qafqazı gəzdim və Azərbaycandakı kimi rəqs ansamblı görmədim", - deyə ürək sözlərini qələmə alıb. Səyyah öz dostlarına: "Qafqazda olsanız, Şamaxıdakı rəqs ansamblının rəqslərini seyr edin, gözəl zövq alarsınız", - deyə yazıb.**

Məşhur etnoqraf İ.İ.Şalyapin isə: "Bütün Qafqaz xalqları oxumağı və oynamağı Azərbaycan türklərindən öyrənib", - deyə rəqslərimizə heyranlığını bu sözlərlə ifadə edib.

Hər bir xalqın milli rəqsi onun əxlaqi və mənəvi keyfiyyətlərinin güzgüsüdür. Milli rəqslər xalqların xarakterini, xislətini, tarixini, mədəniyyətini özündə əks etdirmək baxımından əhəmiyyətlidir. Sənətşünaslar bildirirlər ki, milli dəyərimiz olan rəqslərimizi fərqləndirən cəhət həm də özündə folkloru və müasirlik elementlərini birgə yaşatmasıdır.

### İRSƏ HÖRMƏT

Xalq rəqslərimizin kökünü Qobustan abidələri və qayaüstü təsvirlərdə araşdıran **sənətşünaslıq üzrə fəlsəfə doktoru Əsəd Rzayev** "Kaspi"yə açıqlamasında Qobustan qayalarında qədim Azərbaycanın "Yallı" rəqs səhnələrinin təsvir olunduğunu bildirir. Belə ki, bu rəqslər uğurlu ov üçün ovsun mərasimi rolunu oynayıb. Əksər dünya xalqlarında olduğu kimi, azərbaycanlılarda da ilk rəqslər ayin və ov rəqsləri olub. Erkən orta əsrlərdən başlayaraq, əsasən mərasim rəqslərindən müxtəlif növ xalq rəqsləri formalaşmağa başlayıb: "Milli rəqslərimiz arasında ən qədimi "Yallı"dır və tarixi ibtidai dövrlərə bağlıdır. Hər regionun da öz "Yallı" rəqsləri var. Təkcə Naxçıvanın 200-ə yaxın "Yallı"sı mövcuddur". Rəqsin yaranma tarixinin bəşəriyyətin yaşı ilə ölçüldüyünü qeyd edən sənətşünas: "Hər bir şeydə rəqsanəlik var"- deyərək, milli rəqs tariximizə nəzər salır: "Qədim rəqslərimiz arasında solo, duet (ikinəfərlik), trio (üçnəfərlik), kütləvi rəqslər var. Döyüşkənliyi əks etdirən "Qazağı", "Cəngi" rəqsləri, şən, qıvraq oyun havası olan "Şalaxo", tarixçəsi qədim rəvayətə söykənən "Uzundərə", "Tərəkəmə" , "Qaytağı", "İnnabı", "Nəlbəki", "Heyvagülü", "Köçəri" və s. kimi qədim rəqslərimiz çox məşhurdur. Hər rəqsin yaranmasının öz maraqlı tarixçəsi və rəvayəti var". Milli rəqslərimiz arasında "Dərbəndi", "Aşqabadi", "Əsgərani", "Qars" və digər milli rəqslərimiz də var ki, onlar Azərbaycanın coğrafi adlarını özlərində yaşadırlar.

Sənətşünasın fikrincə, hər bir xalqın rəqsi özünəməxsusdur. Çünki hər bir xalqın kökü xalq rəqslərindən başlayır: "Milli rəqslər həmişə gündəmdə olub və həmişə də olacaq. Qızların öz incəliklərini və gözəlliklərini göstərən lirik rəqslərimiz, oğlanların gücünü-qüdrətini, döyüşçü ruhunu üzə çıxaran cəngavərlik, xalqın birliyinin təcəssümü olan qəhrəmanlıq rəqslərimiz, həmçinin oyun və məzəli rəqslərimiz var. Bizim xalq rəqslərimiz dünyada ən maraqlı və sevilən rəqslərdən biridir və bu, hər yerdə qəbul edilir". Sənətşünas hesab edir ki, hazırda ifa olunan xalq rəqslərimizdə ilk növbədə korifey sənətkarların əmanət qoyduğu yola sadiq qalmalıyıq: "Biz korifey sənətkarlardan rəqslərimizin tarixini, quruluşunu, fəlsəfəsini öyrənmişik. Onların əmanət qoyduğu irsə hörmət edərək addımlamalı və bu irs əsasında yeniliyə doğru getməliyik. Hər bir yeniliyi edəndə də çalışmalıyıq ki, qədim rəqslərimizin irsiliyinə heç bir təsir etməsin. Çünki bu rəqslər bizim milli sərvətimiz, dəyərimizdir".

### DANIŞAN RƏQSLƏR

Milli rəqs sənətimizin tarixinin qızıl səhifələrinə öz adlarını yazdıran, rəqs sənətimizi dünya ölkələrində tanıdan qocaman və dünyadan köçmüş sənətkarlarımızın qiymətli irs haqqında səsləndirdikləri fikirlər milli dəyərimizin tarixini təkcə mənbələrlə deyil, məşhur ifaçıların, bu sənəti nəsildən-nəslə yaşadanların dili ilə vərəqləməyə kömək edir. Onların hər biri ilə görüşümüzdə qədim rəqs sənətimiz haqqında maraqlı bilgilər əldə etmişik.

Azərbaycan xalq rəqslərini səhnəyə çıxarmaq və inkişaf etdirmək yolunda hələ dünənə qədər mərhum Xalq artisti Əminə Dilbazi, Xalq artisti Roza Cəlilova, Xoşbəxt Məmmədova, Böyükağa Məmmədov, Kamil Dadaşov, Sona Dadaşova, Tutu Həmidova və başqa sənətkarlar cəfakeşlik göstəriblər. Onların qurduğu və özlərinin də ifaçıları olduğu bir-birindən maraqlı, məzmunlu rəqslərimiz nəinki ölkəmizdə, onun sərhədlərindən kənarlarda - dünyanın möhtəşəm konsert salonlarında ifa olunaraq, heyranlıqla qarşılanıb.



Rəqsin çox çətin, səbir və hövsələ tələb edən sənət olduğunu bildirən, "Naz eləmə", "Turacı"sı və s. rəqslərlə milli rəqs tariximizdə adını əbədiləşdirən **"Rəqs şahzadəsi" Əminə Dilbazi** ilə hələ sağlığında söhbət edərkən, özünü bu sənətə gənc ikən gəlib qocalanlardan adlandırmışdı: "Səhnədə 20-25 il dözmək çox çətin işdir. Bəzən rəqqasələr səhnəni daha tez tərk edirlər, ya zədə alırlar, ya da ciddi pəhrizə dözə bilmirlər. Rəqqasə olmağın əsas şərtlərindən biri xarici görkəmdir, gərək onu qorumağı bacarasan. Rəqqasə, sadəcə, oynayıb səhnədən düşməməlidir. Oynadığı rəqslərin mənasını, məzmununu tamaşaçılara anlatmalıdır. Əsas odur ki, rəqqasə oynadığı rəqsin mənasını dərk etsin".

Ünlü rəqqasə deyirdi ki, onun çalışdığı dövrdə sənətə qarşı fərqli münasibət olub, rəqqasələr özlərini ifaçısı olduqları rəqslərə qurban etməyə çalışıblar: "Şəfiqə Əmirovanın "Bənövşə"si, Roza Cəlilovanın "Gəlmədi"si, "Ağ çiçəyim"i və s. rəqslər rəqqasələrin adı ilə səslənirdi. Əlibaba Abdullayevin qurduğu "Naz eləmə" rəqsini bütün dövrlərin rəqs aləminin himni saymaq olar. Hər rəqqasə və rəqqasın özünəməxsus adı, şöhrəti vardı. Heç biri də bir-birinə oxşamırdı".

Rəqqasə vaxtilə çalışdığı Mahnı və Rəqs Ansamblının istedadlı üzvlərindən söhbət açaraq, Əlibaba Abdullayev, Məhərrəm və Fərəc Cavanşirovlar, Gülnisə Qafarova, Şəfiqə və Fizzə Hənifəyevalar, Tutu Həmidova kimi sənətkarların ansamblın şöhrətini dünyaya yaydıqlarını, milli rəqslərimizi tanıtdıqlarını xatırlayırdı: "Vaxt keçdikcə, səhnəyə yeni qızlar və oğlanlar gəldi. Mən Filarmoniyada ansamblın rəhbəri olanda virtuoz rəqqasımız Böyükağa Məmmədov və Roza Cəlilovanı qəbul etdim. Onların gəlişi ansambla təkan verdi. Bizim rəqslərimiz sanki danışırdı".

Azərbaycanın milli rəqsləri, ümumiyyətlə, bütün bölgələrin rəqsləri haqqında dərin bilgilərə malik olan Əminə Dilbazi rəqslərimizin tarixinin tədqiqata ehtiyacının olduğunu bildiridi: "Tədqiqatçılar həmin rəqslər haqqında araşdırma aparmalıdırlar. Hələlik isə elə bir ədəbiyyata rast gəlməmişəm. Bu, gələcək nəsillər üçün çox vacibdir".

### "ƏNƏNƏNİ QORUYUB SAXLAMALIYIQ"

**Azərbaycan Dövlət Rəqs Ansamblının yaradıcısı, "Rəqsin professoru" Xumar Zülfüqarovanın** fikrincə, rəqs qurmaq üçün mütləq muğamatı bilmək lazımdır: "Bir sənətçi muğamatı duymasa, o şəxs Azərbaycanın baletmeysteri deyil. Çünki musiqinin hansı muğam üzərində olduğunu bilmək lazımdır. Dövlət Rəqs Ansamblında, həmçinin Mahnı və Rəqs Ansamblında bu gün elmli rəhbərlər yoxdur. Azərbaycan rəqsləri içərisində moldovan, ləzgi hərəkətləri görünür. Axı bizim ağayana, oturuşu-duruşu, baxışları ilə seçilən tam fərqli rəqslərimiz var. Azərbaycan rəqsləri göz üstündə qurulub. Rayonların hər bir rəqsi fərqlidir". Zəngin folklorumuzun olduğunu bildirən X.Zülfüqarovanın fikrincə, ən qədim rəqslərimiz olan "Yallı"lar xalqımızın ruhundan əmələ gəlib: "Ancaq indi "Yallı"lara o qədər artıq hərəkətlər qoşurlar ki, gözəlliyinə xələl gəlir. Biz öz rəqslərimizdə ənənəni qoruyub saxlamalıyıq".

**Əməkdar artist Aliyə Ramazanova:** "Bizim vaxtımızda tam folklor, milli rəqslər üstünlük təşkil edirdi. Hal-hazırda rəqslər baletlə qarışıb. Balet və başqa millətlərin rəqs hərəkətləri milliliyi üstələyib. O vaxt mahnıya uyğun qurulan rəqslər bu gün yada düşmür. Rəqs həm musiqi ilə, həm də rəssamlıqla bağlı sənətdir. Bunu dərk edənlər çox azdır".

Həmişə sənətə böyük məsuliyyətlə yanaşdığını deyən rəqqasə hesab edir ki, bu gün səhnəyə çıxmaq çox asanlaşıb və yaxşı ifa göstərmək xeyli çətindir: "Əsil istedadlı səhnə ustalarımız çox azdır. "Tərəkəmə", "İnnabı", "Naz eləmə", "Vağzalı", "Uzundərə" kimi gözəl milli rəqslərimizi yaşatmaq lazımdır".

Rəqqasənin sözlərinə görə, əvvəllər rəqqas və rəqqasələr özləri də rəqs qurardılar və həmin rəqslərin çoxu Azərbaycanın oyun havaları tarixində yer alıb: "Mən "Azərbaycan süitası"nı qurmuşam. İstəyirəm ki, bu rəqs itib-batmasın. "Vağzalı-mirzeyi"ni niyə oynamayaq? Niyə onu unudaq? Axı mən bu rəqsi 25 il oynayıb yaşatmışam. Mən onu necə oynamışamsa, tələbələrimə də elə öyrətmişəm ki, qoy onlar gələcəkdə öz tələbələrinə elə öyrədib yaşatsınlar. Amma indiki rəqqasələr rəqs qurmağı o qədər də bacarmırlar. İndi yeni quruluşlarla, rəqs sənəti ilə ciddi məşğul olanlar çox azdır".

### NƏ QƏDƏR Kİ...

**Xalq artisti Roza Cəlilova** rəqs ifaçılığında daxili istedada üstünlük verir. Rəqqasəyə görə, əgər daxildə istedad, musiqi qavrama qabiliyyəti varsa, ifa zamanı üzə çıxmalıdır: "İndiki rəqqaslar milli rəqslərimizin kökünü başqa istiqamətə yönəldirlər. Bizim dövrdə şərtlər də başqa idi. Rəqqasənin ilk çıxışı uğurlu sayılırdısa, onda Bədii Şura onun efirə çıxışına razılıq verirdi. Senzuranın nə qədər ağır şərtləri olsa belə, bir çox sənət adamının püxtələşməsində böyük rol oynayırdı. Sənətçi özündə məsuliyyət hiss edirdi. Bədii Şuradan keçməyən şəxs üçün "yox" cavabı ağır idi. O, özünü sübut etmək üçün günlərlə çalışırdı. Bu cür yetişən sənətkarları, xüsusilə də rəqqasələri çox görmüşəm". R.Cəlilova rəqs sənətini özünə peşə seçənlərə ustad kimi tövsiyəsini verir: "Rəqslərimiz milli dəyərimizdir. Biz bu rəqslərlə dünya ölkələrində Azərbaycanı tanıtmışıq. Bizim musiqimizə, rəqslərimizə heyran kəsiliblər. Bu sərvəti qorumaq, nəsildən-nəsilə çatdırmaq hamımızın borcudur".

**"Azərbaycan qartalları" rəqs ansamblının rəhbəri Xanlar Bəşirov** qədim milli rəqslərimizin dəyişikliyə uğramasından narahatlığını ifadə edir: "Milli rəqslərimiz ənənəsindən uzaqlaşıb". Rəqqas bildirir ki, xüsusən toy məclislərində qədim havalar ifa olunanda insanlar onları başqa cür təqdim edirlər: "Xüsusən "Yallı"larımızı təhrif edirlər. Bu onu göstərir ki, yüzdən çox olan "Yallı", "Halay" rəqslərimiz itmək üzrədir". Rəqqas hazırkı rəqs məktəbimizin keçmiş ənənələrindən uzaqlaşdığını, pərakəndə repertuarla və sistemlə fəaliyyət göstərdiyini bildirir: "Bu gün də Azərbaycan rəqslərinə baxan əcnəbilər: "Sizin rəqsləriniz bizə məlum olmayan mədəniyyətdir. Həmin rəqslərə baxanda adam düşünür ki, Azərbaycan istedadlar ölkəsidir" - deyirlər. Ona görə milli rəqslərimizi qorumalıyıq".

Milli rəqslərimizi öz kökü üzərində qurmaq və qorumaq üçün hələ bu sahədə müəyyən işlər görməyə ehtiyac var. Nə qədər ki "Köçəri" rəqsinə sahib çıxmaq istəyən ermənilər kimi hansısa xalqlar da "Vağzalı", "Uzundərə", "Nəlbəki" və ya "Çobanı" rəqsləri bizimdir" deməyiblər. Eləcə də mədəniyyət və turizm naziri Əbülfəs Qarayevin "Yallı" rəqsinin UNESCO-nun qeyri maddi-mədəni irs siyahısına daxil edilməsi ilə bağlı gözlənilən müraciətinin vaxtı çoxdan çatıb.

**Təranə Məhərrəmova**

***Yazı Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi ilə Azərbaycan Mətbuat Şurasının "Milli rəqslərimiz milli dəyərimizdir" mövzusunda keçirdiyi müsabiqəyə təqdim olunur.***